BAKI UNİVERSİTETİNİN XƏBƏRLƏRİ
*№4 Sosial-siyasi elmlər seriyası 2009*

# İNSAN HÜQUQLARININ MÜDAFİƏSİ VƏ MÜASİR BEYNƏLXALQ HÜQUQDA HUMANİTAR MÜDAXİLƏ PROBLEMİ

**M.Y.MƏHƏRRƏMOVA**
***Bakı Dövlət Universiteti***

*Məqalədə insan hüquqlarının müdafiəsi və müasir beynəlxalq hüquqda humanitar müdaxilə problemi hüquq ədəbiyyatında mövcud fikir müxtəlifliyi və beynəlxalq praktika əsasında geniş təhlil edilir. Xüsusi olaraq qeyd edilir ki, humanitar müdaxilənin həyata keçirilməsinin təhlili ilə əlaqədar bütün hallarda beynəlxalq hüququn əsas, ümumtanınmış prinsiplərindən olan müasir beynəlxalq hüquqda dövlətlərin suveren bərabərliyi, o cümlədən əsas insan hüquq və azadlıqlarına hörmət prinsipinin qarşılıqlı təsir elementlərinə diqqətlə yanaşılması zəruridir.*

BMT-nin fəaliyyətinin aktivləşdirilməsi xüsusilə əsas insan hüquq və azadlıqlarının kobud və kütləvi şəkildə pozulmasının qarşısının alınması üçün vacibdir, belə ki, bu pozuntular sülhə və beynəlxalq təhlükəsizliyə birbaşa təhlükə yaradır. BMT öz Nizamnaməsinin VII fəslinə əsaslanaraq bu cür pozuntuları aradan qaldıra bilər və qaldırmalıdır. Bununla əlaqədar nəzərə almaq lazımdır ki, hərbi güc tətbiq etməklə bağlı tədbirlər fərdi qaydada dövlətlər tərəfindən yox, bir qayda olaraq BMT-nin adından Təhlükəsizlik Şurasının qərarına əsasən və ya BMT Baş katibinin qərarına əsasən tətbiq olunmalıdır. Təşkilatın hər bir üzvü sülhə və beynəlxalq təhlükəsizliyə təhlükə törədə biləcək hadisələrin qarşısını almaq üçün bu və ya digər tədbirlərin görülməsi istəyi ilə Təhlükəsizlik Şurasına müraciət edə bilər (BMT Nizamnaməsinin 35-ci maddəsinin 1-ci bəndi). Genosid cinayətinin aradan qaldırılması və onun cəzalanırılması haqqında Konvensiyanın VIII maddəsində xüsusilə nəzərdə tutulmuşdur ki, Konvensiyanın hər bir üzvü «genosid aktlarının qarşısının avlınması məqsədilə BMT Nizamnaməsinin müddəalarına əsasən bütün lazımi tədbirlərin görülməsi tələbi ilə BMT-nin müvafiq təşkilatına müraciət edə bilərlər». Bu cür tədbirlərə iqtisadi sanksiyalar, diplomatik əlaqələrin kəsilməsi və s. aiddir. Bunlar BMT-nin güc tətbiq etməsi ilə də əlaqədar ola bilər.

İnsan hüquqlarının cinayətkarcasına pozulmasının aradan qaldırılması məqsədilə sanksiyaların tətbiqi ilə bağlı Təhlükəsizlik Şurasının qərarı BMT-nin üzvü olan hər bir dövlət üçün məcburidir. Məsələn, aparteid cinayəti və onun cəzalandırılması haqqında Konvensiyanın VI maddəsində nəzərdə tutulur ki, dövlətlərin Təhlükəsizlik Şurasının qərarlarını yerinə yetirmək öhdəliyi aparteidin aradan qaldırılmasına yönəlmişdir. Lakin hal-hazırda insan hüquqlarının təmin edilməsində BMT-nin səlahiyyətlərindən kifayət qədər geniş istifadə olunmur. Bir çox hallarda Təşkilat bütövlükdə və xüsusilə Təhlükəsizlik Şurası nəinki insan hüquqlarının kobud və kütləvi şəkildə pozulması hallarında, həmçinin bu və ya digər xalqların və milli azlıqların mövcudluğu təhlükədə olanda belə hərəkətsiz dayanır. BMT mexanizminin daha effektiv şəkildə istifadə olumasında marağı olan böyük dövlətlər insan hüquqlarının müdafiəsi məqsədilə lazımi tədbirlərin görülməsi ilə bağlı məsələlərin müzakirəsində vetodan istifadədən imtina barədə centlemen sazişi imzalaya bilərdilər. BMT Nizamnaməsinin 53-cü maddəsinə müvafiq olaraq Təhlükəsizlik Şurası belə hüququ hər dəfə xüsusi səəlahiyyət almadan regional təşkilatlara verə bilər. Nəhayət, son olaraq

Təhlükəsizlik Şurası vacib hesab etdikdə Baş Məclisə icazə verə bilər ki, insan hüquqlarının cinayətkarcasına pozulmasının qarşısını almaq məqsədilə BMT-nin üzvü olan dövlətlərə güc tətbiq etmək barədə öz məsləhətlərini versin. Bütün bu tədbirlər BMT Nizamnaməsinə dəyişikləri tələb etmir, bunlar haqqında qərarı Təhlükəsizlik Şurası da verə bilər.

İnsan hüquqlarının cinayətkarcasına pozulmasının qarşısını almaq məqsədilə BMT-nin güc tətbiq etməsi barədə məsələnin həllinin daha radikal və effektivliyi tez təsirə malik BMT hərbi hissələrinin yaradılmasıdır. Bu cür hissələr BMT Nizamnaməsinin 43-cü maddəsinə əsasən yaradıla bilər və lazım gəldikdə, Təhlükəsizlik Şurasının qərarı ilə tətbiq oluna bilər.

Bununla bərabər, nəzərə almaq lazımdır ki, nəinki bütövlükdə beynəlxalq təşkilatlar, həmçinin ayrı-ayrı dövlətlər də müstəsna hallarda insan hüquqlarının cinayətkarcasına pozulmasının qarşısını almaq məqsədilə məcburi tədbirlərə əl ata bilərlər. Onlar öz təşəbbüsləri ilə bunun üçün silah tətbiq etmədən, iqtisadi, diplomatik və digər tədbirlər görmək hüququna da malikdirlər. Beynəlxalq təcrübədən göründüyü kimi, bu cür oxşar tədbirlər müəyyən vəziyyətlərdə effektiv sayılır. Beynəlxalq hüquq doktrinasında belə bir fikir söylənilir ki, dövlət bir sıra hallarda, həmçinin başqa bir ölkənin qanuni hakimiyyətinin dəvəti ilə güc də tətbiq edə bilər (14, 113-142). Bizim fikrimizcə, əgər insan hüquqlarının cinayətkarcasına pozulmasının qarşısının alınması vacibdirsə və qanuni hökumət bunun qarşısını almaq gücündə deyilsə, onda bu hüquqauyğundur. Dövlət, o cümlədən federativ dövlət öz ərazisində yaşayan insanların müdafiəsini təmin etmək məqsədilə güc tətbiq etdikdə bu da hüquqauyğundur.

Beynəlxalq hüquq doktrinasında və dövlərlərarası əlaqələrdə ən çox mübahisə və ziddiyyət təşkil edən məsələlərdən biri də humanitar müdaxilənin hüquqauyğunluğu haqqındadır. Beynəlxalq hüququn əmələ gəldiyi andan bir çox alimlər humanitar müdaxilənin hüquqauyğunluğunu qəbul edirlər, daha doğrusu, güc tətbiqi dövlətlər arasında müharibə başlanmasından əvvəl «humanitar» məqsədlə milli və digər azlıqların, həmçinin xarici dövlətin ərazisində yerləşən vətəndaşların həyatını və əmlakını qorumaq məqsədilə tətbiq oluna bilər.

Bu və ya digər dövlətə mənsub olmasından asılıl olmayaraq hər bir insanın müəyyən təbii hüquqlara malik olmasına əsaslanaraq Hüqo Hrotsi «Müharibə və sülh hüququ haqqında» əsərində nəinki öz vətəndaşları ilə, həm də digər vətəndaşlarla «açıqcasına qeyri-qanuni» rəftar edildikdə, onların müdafiəsi məqsədilə aparılan ədalətli müharibəyə haqq qazandırır (4, 562-563).

Digər dövlətlərin daxili işlərinə qarışmaq nöqteyi-nəzərinin qanuniliyi və «humanitar» əsaslarla müdaxilənin hüquqiliyi 18-ci əsrdə olduğu kimi, 19-cu əsrdə də əksəriyyət beynəlxalq hüquqşünaslar tərəfindən qəbul olunurdu. Ancaq o dövrün ayrı-ayrı alimləri, məsələn A.Qefter təsdiq edirdi ki, əgər dövlət əsas insan hüquq və azadlıqlarını kobudcsına pozursa, onda «onunla bütün münasibətləri kəsmək lazımdır», lakin güc tətbiq etməklə onun daxili işlərinə qarışmaq lazım deyil. O vaxtlar həm də beynəlxalq münasibətlərdə humanitar müdaxilə doktrinasından geniş istifadə olunurdu. Bu «qeyri-mədəni» xalqların əsarət altına alınması üçün çoxsaylı «əsaslardan» biri idi. Bundan başqa «humanitar» məqsədlər adı ilə, milli və dini azlıqların «müdafiəsi» bəhanəsi ilə Avropa dövlətləri arasında artıq bölünmüş dünyanın yenidən bölüşdürülməsi uğrunda mübarizə gedirdi. Tarixin o dövr üçün bir çox beynəlxalq müqavilə və sazişlərində «müdafiə hüququ» rəsmi olaraq qəbul edilirdi.

XIX əsr dövlətlərin xarici siyasət təcrübəsini tədqiq edərkən tanınmış ingilis beynəlxalq hüquqşünası Y.Brounli belə bir nəticəyə gəlmişdir ki, «həqiqətdə 1860-61-ci illərdə Suriyanın işğalı istisna olmaqla, heç bir müdaxilə humanitar məqsədlə edilməmişdir» (12, 339-340). İkinci dünya müharibəsindən və BMT-nin yaradılmasından sonra beynəlxalq əlaqələrdə güc tətbiq etmək hüququ ciddi surətdə

məhdudlaşdırılmışdır. Buna baxmayaraq, güc tətbiq etmək üçün ayrı-ayrı dövlətlər tərəfindən bəhanə kimi istifadə edilən humanitar müdaxilənin hüquqauyğunluğu haqqında məsələ indi də geniş müzakirə olunur. Məhz bu bəhanə ilə ABŞ qoşunları 1963-cü ildə Qrenadaya, 1989-cu ildə isə Panamaya daxil olmuşdur.

Humanitar müdaxilənin hüquqauyğunluğu və onun tətbiq olunma sahəsi haqqında məsələ müxtəlif beynəlxalq formalarda müzakirə edilir. Bu problem Beynəlxalq hüquq Assosiasiyasının bir sıra konfranslarında və həmçinin 1990-cı ildə Vaşinqtonda keçirilmiş Sovet-Amerikan beynəlxalq hüquqşünaslarının konfransı zamanı müzakirə olunub. Hələ 1990-cı ildə Beynəlxalq Hüquq Assosiasiyasının 54-cü konfransında insan hüquqları haqqında Yardımçı Komitənin təqdim etdiyi məruzədə təsdiq edilirdi ki, humanitar müdaxilə doktrinası tamamilə «inandırıcıdır və onun varlığı deyil, sahəsi müzakirə olunmalıdır» (13, 29-31). Konfransda Assosiasiyanın üzvü olan bir çox alimlər humanitar müdaxilənin hüquqauyğunluğuna şübhə ilə yanaşmışlar. Məsələnin mübahisə xarakterli olması ilə əlaqədar insan hüquqları üzrə Yardımçı Komitə yenidən – 1972-ci ildə Assosiasiyanın 55-ci konfransında və 1974-cü ildə 56-cı konfransında humanitar müdaxilə doktrinası haqqında məruzəsini təqdim etdi (17, 15-19). Beynəlxalq hüquq Assosiasiyası bu məsələ haqqında yekdil fikrə gələ bilmədi və nəhayət, 1976-cı ildə insan hüquqları üzrə Yardımçı Komitə ləğv edildi. Humanitar müdaxilə doktrinası haqqında müxtəlif nöqteyi nəzərlər 1990-cı ildə Vaşinqtonda keçirilmiş Sovet-amerikan beynəlxalq hüquqşünasları konfransında da öz əksini tapmışdır (14, 185-223).

Beynəlxalq hüquq elmində humanitar müdaxilənin mümkünlüyünün müxtəlif meyarları göstərilir. Bütün bunları aşağıdakı kimi qruplaşdırmaq olar: insan hüquqlarının kobudcasına pozulması hökmən və ya artıq baş vermiş olmalıdır; bütün mümkün sülh vasitələri artıq tükənməlidir; insan hüquqlarının kobudcasına pozulmasının dayandırılması tələbilə dövlətə ultimatum verilməlidir; əgər vaxt imkan versə, humanitar müdaxilə zamanı əldə edilə biləcək nəzərdə tutulumuş məqsədlər barədə BMT Təhlükəsizlik Şurasına xəbər verilməlidir; əgər Təhlükəsizlik Şurası heç bir tədbir görməzsə, humanitar müdaxilə tətbiq edilə bilər; bu halda əgər mümkündürsə, yaxşı olardı ki, dövlətdən ərazisinə qoşun yeritmək üçün icazə alınsın; güc tətbiq etmənin məqsədi yalnız insan hüquqlarının kobudcasına pozulmasının aradan qaldırılması olmalıdır və dövlətin hər hansı digər maraqları üçün istifadə olunmalıdır; güc tətbiqi dövlətin siyasi və iqtisadi quruluşunu və hökumətini dəyişməməlidir; humanitar müdaxilə zamanı məhdud kontingent qoşundan ancaq nəzərdə tutulmuş məqsədə nail olmaq üçün istifadə olunmalıdır; silahlı qüvvələrdən məhdud zamanda istifadə olunmalıdır və humanitar müdaxilənin məqsədi əldə edildikdən sonra dərhal xarici ölkənin ərazisindən çıxarılmalıdır (18, 185-201).

Humanitar müdaxilə doktrinası tərəfdarlarının əksəriyyəti onun proporsionallıq və məhdud zamanla bağlı tezisi dəstəkləməklə yalnız ümumi hüquqa deyiləni həm də BMT Nizamnaməsinə istifadə edirlər. V.A.Kartaşkin də daxil olmaqla. rus alimləri bir qayda olaraq dövlətlərin humanitar müdaxilə hüququnu inkar edirlər (5, 11-15; 13, 202-211). Bununla belə, müasir beynəlxalq münasibətlərin inkişafı ona dəlalət edir ki, müəyyən hallarda dövlətin öz vətəndaşlarının həyatını qorumaq üçün güc tətbiq etməkdən başqa yolu qalmır. Dövlətin xarici dövlətin ərazisində müvəqqəti olaraq yaşayan vətəndaşlarının silahlı terrorçular və ya hökumətin icazəsi olmadan fəaliyyət göstərən şəxslər tərəfindən əsir götürülməsi hallarında güc tətbiq etməsi bəyənilir. Müstəsna hallarda milli azlıqlara mənsub şəxslərin həyatını qurtarmaq məqsədilə silahlı qüvvələrdən istifadə oluna bilər.

Müasir beynəlxalq hüquq humanitar məqsədlərlə birtərəfli qaydada dövlətin güc tətbiq etməsinin hüquqauyğunluğunu inkar etmir. BMT Nizamnaməsinin 2-ci maddəsinin 4-cü bəndinə uyğun olaraq, istər dövlətin siyasi müstəqilliyinə və ərazi

toxunulmazlığına qarşı, istərsə də «BMT-nin məqsədləri ilə bir araya sığmayan hər hansı şəkildə» güc tətbiqi qadağandır.

BMT-nin Nizamnaməsinin 1-ci maddəsinin 3-cü bəndində qeyd edildiyi kimi. Təşkilatın məqsədlərindən biri də insan hüquqlarına hörmətin yayılması və inkişafıdır. Bununla belə BMT Nizamnaməsinin 55-ci maddəsinə uyğun olaraq əsas insan hüquqlarının və azadlıqlarının yayılmasına və inkişafına məhdudiyyət qoymadan dövlətlərin öhdəsinə onlara riayət etmək tapşırılır.

BMT Nizamnaməsinin 56-cı maddəsində qeyd edildiyi kimi, insan hüquqlarının ümumi hörmət və riayət edilməsinə kömək etmək üçün dövlətlərin üzərinə istər birlikdə, istərsə də «Təşkilatla işbirliyi qurmaqla müstəqil fəaliyyət göstərmək» öhdəliyi qoyulur. «Müstəqil fəaliyyət» ifadəsində aydın olunduğu kimi dövlət nəinki bunu edə bilər, o həm də BMT ilə məsləhətləşmək və onunla işbirliyi qurmaqla insan hüquq və azadlıqlarının müdafiəsi üçün lazımi tədbirləri görməyə məcburdur. Buna görə də əgər BMT və Təhlükəsizlik Şurası bu və ya digər səbəblərə görə fəaliyyətsiz qalarsa, onda dövlət ayrıca olaraq öz vətəndaşlarının həyatını qorumaq üçün güc tətbiq edə bilər.

Eyni zamanda, qeyd edilir ki, silahlı qüvvələrdən hökmən məhdud kontinqent qoşunla qısa zaman çərçivəsində istifadə olunmalıdır. Ərazi tutmaq və hökuməti devirmək məqsədilə iri miqyaslı hərbi əməliyyatların keçirilməsi tamamilə yolverilməzdir. Humanitar müdaxilənin məqsədinə nail olunduqdan sonra silahlı qüvvələr dərhal xarici dövlətin ərazisindən çıxarılmalıdır. Beynəlxalq birliyin və ayrı-ayrı dövlətlərin əsas insan hüquq və azadlıqlarının pozuntusunun qarşısını almaq üçün təsiri qısa vaxt ərzində və effektiv olmalıdır.

Lakin bütün hallarda humanitar müdaxilənin həyata keçirilməsinin təhlili ilə əlaqədar beynəlxalq hüququn əsas, ümumtanınmış prinsiplərindən olan müasir beynəlxalq hüquqda dövlətlərin suveren bərabərliyi, o cümlədən əsas insan hüquq və azadlıqlarına hörmət prinsipinin qarşılıqlı təsir elementlərinə diqqətlə yanaşılması zəruridir.

## ƏDƏBİYYAT


1. Азаров А.Я. Права человека. Новое знание. М.: Общество «Знание» России, 1995, 255 с.
2. Доклад Международного Суда 1 августа 1985-31 июля 1986г. Официальные отчеты 41 сессии. Нью-Йорк: 1986, 840 с.
3. Глобализация: Контуры XXI века. Реф. сб. РАН ИНИОН. Центр научно-информ. исслед. глобал. и регионал. пробл. Отд. Восточной Европы. Редкол. вып. / Отв. ред. Игрицкий Ю.И., Малиновский П.В. и др. (Сер. Глобальные проблемы и современности). Ч. III, М.: Институт Государства и права РАН, 2004 196 с.
4. Гроций Г. О праве войны и мира. Три книги. Пер. с латин. А.Л.Саккетти. Под общ. ред. С.Б.Крылова. М.: Госюриздат, 1994, 868 с.
5. Карташкин В.А. Права человека в международном и внутригосударственном праве. М.: Институт Государства и Права РАН, 1995, 132 с.
6. Карташкин В.А. Гуманитарная интервенция в глобализирующимся мире // Юрист-международник, №3, 2003, с. 21-27.
7. Лукашук И.И. Международное право. Общая часть: Учебник. М.: БЕК, 1996, 371 с.
8. Мюллерсон Р.А. Права человека: идеи, нормы, реальность. М.: Юридическая литература, 1991, 160 с.
9. Прокофьев Н.В. К вопросу о борьбе с международным терроризмом на территориях иностранных государств // Московский журнал международного права, №1, 2003, с. 121-127.
10. Права человека и вооруженные конфликты. Учебник для высших военных учебных заведений. Отв. ред. В.А.Карташкин. М.: НОРМА (Издательская группа НОРМА–ИНФРА·М), 2001, 384 с.
11. Черниченко С.В. Теория международного права. В 2-х т. Т. 1: Современные теоретические проблемы. М.: НИМП, 1999, 336 с; Т. 2: Старые и новые теоретические проблемы. М.: НИМП, 1999, 531 с.
12. Brownlie J. International Law and the use of force by states. Oxford, 1963, 576 p.

13. International Law. Edited by Malcolm D.Evans. Second edition. Oxford, 2006.
14. Human rights in international law. 2nd edition. Basic texts. Strasbourg Cedex, 2000, 538 p.
15. Kelsen H. General Theory of Law and State. Cambridge, Harvard University Press, 1945, XXXIII, 516 pp.
16. Manfred Novak. Introduction to the International Human Rights Regime. Leiden/Boston, 2002, 365 p.
17. Malanczuk P. Akenhurst's Modern Introduction to International Law. London, New York, Routledge, 1996, 340 p.
18. Rebecca M.M. Wallace. International Law. Third Edition. Nopier University, Edinburg. London, Sweet & Maxwell, 1997, 329 p.
19. Shaw. M. International Law. Forth edition. Cambridge University Press, Agrotivs Publication, 1997, 939 p.

## ЗАЩИТА ПРАВ ЧЕЛОВЕКА И ПРОБЛЕМА ГУМАНИТАРНОЙ ИНТЕРВЕНЦИИ В СОВРЕМЕННОМ МЕЖДУНАРОДНОМ ПРАВЕ

**М.Ю.МАГЕРРАМОВА**

**РЕЗЮМЕ**

В статье защита прав человека и проблема гуманитарной интервенции в современном международном праве широко анализируются на основе существующих различных мнений в юридической литературе и международной практики. Особо отмечается, что в связи с анализом осуществления гуманитарной интервенции, во всех случаях необходим внимательный подход элементам взаимодействия основных общепризнанных принципов международного права, как суверенное равенство государств в современном международном праве, а также принцип уважения основных прав и свобод человека.

## PROTECTION OF HUMAN RIGHTS AND HUMANITARIAN INTERVENTION PROBLEM IN MODERN INTERNATIONAL LAW

**M.Y.MAHARRAMOVA**

**SUMMARY**

In the article the protection of human rights and the problem of humanitarian intervention in modern international law are widely analyzed on the basis of existing various opinions in the legal literature and the international practice. It is especially noticed that, in connection with the analysis of realization of humanitarian intervention, in all cases the attentive approach is necessary for elements of interaction of the basic conventional principles of international law, as a sovereign equality of the states in modern international law, and also a principle of respect of fundamental human rights and freedoms.